# AĞSTAFA RAYONU DİNAMİK İNKİŞAF YOLUNDA

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2015-ci ilin 9 ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasındakı nitqindən irəli gələn vəzifələr Ağstafa Rayon İcra Hakimiyyəti başçısı yanındakı Şuranın iclasında ətraflı müzakirə olundu. Ağstafa Rayon İcra Hakimiyyətinin akt zalında keçirilən iclasda rayon icra hakimiyyəti Aparatının işçiləri, hüquq-mühafizə orqanları işçiləri, idarə, müəssisə və təşkilat rəhbərləri, yerli icra nümayəndələri və bələdiyyə sədrləri, həmçinin ictimai təşkilatların nümayəndələri iştirak edirdi.**

Şura iclasına sədrlik edən Məhərrəm Quliyev Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2015-ci ilin 9 ayının sosial-iqtisadi inkişafına həsr olunmuş iclası barədə məlumat verərək qeyd etmişdir ki, 9 ay ərzində ölkə iqtisadiyyatı 3,7 faiz artmış, ümumdaxili məhsulun səviyyəsi yüksəlmiş, sənaye istehsalı 2,1 faiz, qeyri-neft sənayesi 10,0 faizdən çox artmışdır. İnflyasiya cəmi 3,7 faiz təşkil etmiş, əhalinin pul gəlirləri ənənəvi olaraq inflyasiyanı üstələyərək 5,8 faiz artmışdır. Kənd təsərrüfatında 6,7 faiz artım olmuşdur.

"2015-ci ilin 9 ayında Ağstafa rayonunun sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələr barədə" rayon icra hakimiyyətinin başçısı Məhərrəm Quliyev geniş məruzə ilə çıxış etdi. Qeyd edildi ki, Ağstafa rayonunda da 2015-ci ilin 9 ayı ərzində əldə olunan nailiyyətlər ötən ilin müvafiq dövrü ilə müqayisədə xeyli çoxdur. Hesabat məruzəsində bildirildi ki, ötən ilin müvafiq dövrü ilə müqayisədə 2015-ci ilin 9 ayında Ağstafa rayonunda ümumi məhsul buraxılışının həcmi 6,4 faiz, o cümlədən sənaye məhsulunun həcmi 6,8 faiz, kənd təsərrüfatı məhsullarının istehsalı 16,5 faiz, tikinti işlərinin həcmi 16,8 faiz, adambaşına düşən ümumi məhsul buraxılışının həcmi 5,3 faiz artmışdır. Cari ilin yanvar-sentyabr aylarında rayonda nəqliyyat və rabitə xidmətlərinin həcmi 0,2 və 1,7 faiz artmışdır. 2015-ci ilin 9 ayında rayonda əsas kapitala yönəldilən investisiyanın həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 8,5 faiz çoxalmışdır. Rayonda orta aylıq nominal əmək haqqı 1,1 faiz artaraq 241.7 manat olmuş, əhaliyə göstərilən pullu xidmətlərin həcmində 1,6 faiz artım qeydə alınmışdır. Hesabat dövründə rayonun demoqrafik vəziyyətində artım dinamikası müşahidə edilmişdir. Belə ki, ilin 9 ayı ərzində 448 nikah kəsilmiş,1018 körpə dünyaya gəlmiş, əhalinin təbii artımı 563 nəfər olmuşdur. 2015-ci ilin 9 ayında rayonda 554 yeni iş yeri açılmışdır, onun da 473-ü (85,4%) daimi iş yeridir.



Cari ildə rayonda abadlıq, yenidənqurma və tikinti işlərinin sürətlə aparılması təmin olunur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 30 iyun 2014-cü il tarixli Sərəncamına uyğun əsaslı təmir işləri aparılan Ağstafa Rayon Mədəniyyət Evində işlər başa çatdırılmış, Ağstafa Şəhər Musiqi və İncəsənət Mərkəzinin tikintisində işlər sürətlə davam etdirilir. Hazırda Ağstafa şəhərinin Eyvaz Qələmçəli və Nüsrət Kəsəmənli küçələrində yenidənqurma işləri aparılır. Rayon mərkəzi xəstəxanasının Fizioterapiya və Bərpa mərkəzinin əsaslı təmiri və yenidənqurma işləri, eləcə də RMX-nin doğum şöbəsində aparılan təmir işləri yekunlaşmışdır. Poylu kəndində 55 yerlik uşaq bağçası-körpələr evinin tikintisinin layihə sənədlərinin hazırlanması başa çatdırılmışdır. Rayonun Ermənistanla həmsərhəd olan Köhnəqışlaq kəndində yeni 108 şagird yerlik məktəb binasının tikilməsi üçün layihələndirmə işləri aparılır. Rayonun Kür çayının sol sahilində yerləşən 11 yaşayış məntəqəsinin qazlaşması üçün daşıyıcı qaz xəttinin çəkilişi davam edir. Hesabat dövründə Saloğlu və Soyuq bulaq qəsəbələrində əhaliyə qazın verilməsi təmin edilmiş və hazırda Qarayazı, Soyuq bulaqlar qəsəbələri və Köçvəlili kəndində sayğacların quraşdırılması işi başa çatmaq üzrədir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq Sərəncamı ilə təltif edilmiş Ağstafaçay Hidroqovşağı İstismarı İdarəsinin müdiri Yusif Nəsibova "Tərəqqi" medalı təqdim edildi. Həmçinin prokurorluq işçilərinin peşə bayramı münasibəti ilə rayon prokuroru Aslan Surxayev və prokurorluğun iki əməkdaşı, eləcə də 2015-ci ilin 9 ayı ərzində rayonun sosial-iqtisadi inkişafı istiqamətində səmərəli əmək fəaliyyətinə görə rayonun bir qrup meliorasiya işçisi Ağstafa Rayonu İcra Hakimiyyətinin "Fəxri Fərman"ları ilə təltif edildilər.

Tədbirin sonunda ölkə Prezidenti cənab İlham Əliyevə müraciət qəbul edildi.

**Vəli VƏLİYEV,**
**"Respublika".**